**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SAYALI ŞAHİN qızı QULİYEVA**

# ORTA ƏSR AZƏRBAYCAN İNCƏSƏNƏTİNDƏ NÖVLƏRARASI ƏLAQƏLƏRİN KULTUROLOJİ ASPEKTLƏRİ

**İxtisas:** 6219.01 – Kulturologiya və onun ümumi məsələləri

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI-2018**

Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kulturologiya kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Rəna Azər qızı Məmmədova**<br>AMEA-nın müxbir üzvü,<br>sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| **Rəsmi opponentlər:** | **Çingiz Əli oğlu Abdullayev**<br>Kulturologiya üzrə elmlər doktoru,<br>professor |
| | **Aidə Adil qızı Sadıqova**<br>Sənətşünaslıq üzrə fəlsəfə doktoru,<br>dosent |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Dövlət Rəssamlıq Akademiyası** |

Müdafiə ____ __________ 2018-ci il saat ___ - da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdindəki FD.02.091 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1065, Bakı, İnşaatçılar prospekti, 39

Dissertasiya ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____ _________ 2018-ci ildə göndərilmişdir.

**FD.02.091 Birdəfəlik Dissertasiya Şurasının**
**elmi katibi, Kulturologiya üzrə**
**fəlsəfə doktoru, dosent: F.R.Məmmədova**

## DİSSETASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** İncəsənətin növlərarası qarşılıqlı əlaqələrində kulturoloji əsasların rolunun öyrənilməsi məsələsi Azərbaycan humanitar elminin aktual problemləri arasında xüsusi yerə malikdir.

Azərbaycan incəsənətinin növlərarası əlaqələrinin öyrənilməsi Azərbaycanın bədii sisteminin vahidliyi faktını əsaslandırmağa imkan verir. Azərbaycanın bədii sisteminin vəhdəti təkcə çoxtərəfli qarşılıqlı əlaqələr haqqında deyil, həm də Azərbaycan mənəvi irsinin fundamental köklü təməli, Azərbaycan incəsənətinin milli özünəməxsus xüsusiyyətləri, homogenliyi, bütövlüyü haqqında danışmağa əsas verir. Bədii sistemin strukturunun ayrılmazlığı, onun quruluşu və bütövlüyü həm də onun aksioloji cəhətlərini, dəyərlərini, həyat qabiliyyətini müəyyənləşdirir.

İncəsənətin növlərarası təhlilində ümumiləşdirici kateqoriya kimi Azərbaycan incəsənətinin anlayışları orta əsr Azərbaycan mədəniyyətində incəsənətin tarixən formalaşmış morfoloji sisteminin əsasında duraraq bir sıra bədii meyarlara görə birləşən vəhdət təşkil edirlər.Bunların sırasına tarixi mədəni məzmunlu, struktur faktorlarla yanaşı, artefaktları formalaşdıran vasitələri və şəraiti aid etmək olar. Orta əsr Azərbaycan mədəniyyətində incəsənətin növlərarası əlaqələrinin tədqiqinin aktuallığı humanitar elm üçün vacib əhəmiyyət kəsb edən bir sıra səbəblərlə şərtlənir. Öncə, bu növ tədqiqatın azərbaycanşünaslıq üçün zəruriliyi qeyd edilməlidir. Azərbaycan incəsənətinin milli özünəməxsusluğunun öyrənilməsi azərbaycanşünaslığın ən başlıca prioritetlərindən birini təşkil edir. Kifayət qədər uzun bir zaman ərzində, sovet totalitarizmi dövründə alimlərimiz Azərbaycan bədii mədəniyyətinin milli parlaq xüsusiyyətlərini öyrənmək imkanına malik olmamışlar. Azərbaycan humanitar elminin tarixində son onilliklərin tədqiqatları azərbaycanşünaslığın öyrənilmə problemlərinin, xüsusən də, incəsənətin növlərarası təhlil problemlərinin həllinin aktuallığının zəruriliyini Azərbaycan incəsənətinin əsaslarını və xüsusiyyətlərini parlaq şəkildə nümayiş etdirir. Qeyd edək ki, orta əsrlərdə Azərbaycan mədəniyyətində Azərbaycan bədii mədəniyyətinin möhkəm, fundamental təməlini təşkil etmiş ənənələr formalaşırdı. Bu mənada incəsənətin növlərarası əlaqələri böyük rol oynayırdı. İncəsənətin morfoloji sisteminin müxtəlif növ qarşılıqlı əlaqələri və qarşılıqlı təsiri incəsənət sistemində müəyyənedici funksiya daşıyırdı. Məhz bu, orta əsr Azərbaycan mədəniyyətinin bədii sisteminin milli özünəməxsusluğunu və fərdi üslubunu müəyyən etmişdir.

Bu səbəbdən incəsənətin növlərarası təhlilində kulturoloji əsasa istinadetmə aktuallaşır. Belə ki, incəsənətin növlərarası əlaqələrində yalnız

incəsənətin bir növünün deyil, bir neçə növünün ənənəvi qatı və təcrübəsi cəmlənmişdir. Burada Azərbaycan bədii mədəniyyətinin təkamülünün əsrlər boyu yığılmış ən dəyərli cəhətləri toplanmışdır. Bu aspektdə incəsənətin növlərarası təhlili baxımından mədəni refleksiyası böyük rol oynayır. Belə ki, söhbət bədii mədəniyyətin artefaktlarının, ənənələrinin, milli əhəmiyyət kəsb edən modellərinin formalaşmasından gedir.

**Problemin tədqiq olunma dərəcəsi.** Problemin elmi işlənilmə dərəcəsinə həm kulturologiya, həm də sənətşünaslıq üzrə elmi ədəbiyyat səviyyəsində baxılması məqsədəuyğundur. XX əsrin 80-ci illərinin ortalarından incəsənətin öyrənilmə problemləri fənlərarası tədqiqatların diqqət mərkəzində durur. Bir sıra kollektiv əsərlər meydana gəlir. Bu əsərlərdə incəsənət humanitar elmlər geniş sahəsində çoxaspektli öyrənilmə predmeti kimi çıxış edir. “Müasir sənətşünaslığın metodologiyasının aktual problemləri” (1983), “Müasir sənətşünaslığın metodoloji problemləri” (1986), “Sənətşünaslıq və bədii yaradıcılığın psixologiyası” (1988), “Müasir sənətşünaslığın metodologiyasının problemləri” (1989) kimi topluları nümunə göstərmək olar. Bu toplularda həm ümumnəzəri xarakter daşıyan problemlər, həm də incəsənətə ümumhumanitar yanaşmanın spesifikası, kulturologiya və sənətşünaslığın qarşılıqlı əlaqələri, kompleks biliklərin strukturunun xüsusiyyətləri, bədii sistemin inteqrativ tədqiqi və s. İşıqlandırılır.

Dissertasiyada rusiyalı kulturoloqlardan A.Y.Fliyerin, X.V.Sokolovun, B.S.Yerasovun, S.N.İkonnikovun, İ.V.Kondakovun mədəniyyətin nəzəriyyəsinə və tarixinə həsr edilən əsərləri nəzərdən keçirilmişdir. Onların əsərlərində əksini tapan metodoloji prioritetlər bu dissertasiyanın əsasını təşkil edir.

Kulturologiya və sənətşünaslıqda növlərarası yanaşmanı tədqiq edən V.N.Toporov, Y.M.Lotman, V.V.İvanov, K.E.Razloqov, Y.M.Meletinski kimi tədqiqatçılar əsərlərində kulturoloji nəzəriyyə yüksək səviyyədə və dəyərlidir.

Kulturologiya elminə Azərbaycan kulturoloqları F.Məmmədov[1], N.Cəfərova[2], N.Mehdi[3], Ç.Abdullayev[4], A.Tağıyev[5], S.Xəlilov[6],

---

[1] Мамедов Ф. Культурологие Вопросы Теории и истории. Баку, 2002

[2] Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı. AzAtaM, 2002

[3] Mehdi.N. Çətin və dolaşıq durumların kulturologiyası. Bakı, 2001.

[4] Abdullayev.Ç.Almaniya-Azərbaycan əlaqələri. Bakı-2002.”Hərbi nəşriyyat”

[5] Tağıyev A. Mədəniyyətşünaslığın əsasları. Bakı, 1989.

[6] Xəlilov S. Şərq və Qərb. Bakı, 2004

S.Məmmədova[7], İ.Hüseynov[8], X.Səfiyev[9], R.Aslanova[10], M.Manafova[11], M.Süleymanlı[12], həmçinin gənc kulturoloqlar nəsli böyük töfhələr vermişlər. Bu alimlərin əsərlərində kulturologiyanın müxtəlif aspektlərinə - sosium, idarəetmə, mədəniyyətin tarixi və nəzəriyyəsi problemlərinə, ictimai-siyasi məsələlərə baxılır.

Azərbaycan sənətşünaslığında kulturoloji yanaşmalarla bağlı məsələlər E.Salamzadə, R. Abdullayeva, T.Bayramovun əsərlərində tədqiqata cəlb olunmuşdur.

Azərbaycan sənətşünaslığında M.Useynov, Ə.Salamzadə, L.Kərimov, K.Kərimov, L.Bretanitski, N.Həbibov, D.Axundov, R.Əfəndiyev, Ş.Fətullayev, N.Rzayev, C.Novruzova, A.Qaziyev, K.Məmmədzadə, K.Əliyeva, R.Tağıyeva, S.Sadıxova, T.İbrahimov, R.Əmənzadə, C.Həsənzadənin və digər Azərbaycan sənətşünaslarının əsərləri böyük əhəmiyyətə malikdir.

Göstərilən elmi ədəbiyyatın icmalı Azərbaycan incəsənətinin morfoloji sisteminin kulturoloji əsaslar nöqteyi -nəzərindən ilk dəfə bu dissertasiyada təhlil olunduğunu təsdiq edir.

Müvafiq olaraq incəsənətin qarşılıqlı əlaqələrinin yeni tərəfləri ilk dəfə burada aşkara çıxarılır və Azərbaycan bədii sisteminin inkişafında yeni perspektivləri müəyyənləşdirməyə imkan verir.

**Tədqiqatın predmeti və obyekti.** Tədqiqatın predmetini orta əsr Azərbaycan mədəniyyətində Azərbaycan incəsənətinin növlərarası əlaqələri təşkil edir. Tədqiqatın obyekti tədqiqatın kulturoloji metodlarından ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Orta əsr Azərbaycan mədəniyyətində incəsənətin növlərarası əlaqələrinin təhlilinə kulturoloji yanaşma dissertasiyanın məqsədini təşkil edir.

Dissertasiyada aşağıdakı vəzifələr qoyulmuşdur:

---

[7] Məmmədova S. Mədəniyyətşünaslıq. Bakı , Kooperasiya nəşriyyat , 2001

[8] Hüseynov İ. Azərbaycanın milli adət və ənənələrinin bədii- estetik mahiyyəti . Bakı, “ Mars – Paint ”, 2002.

[9] Şəfiyev X. Şərq – Qərb mədəniyyətləri və Əhməd bəy Ağa oğlu. Bakı, Ocaq, 2004.

[10] Aslanova R.Qloballaşma və mədəni müxtəliflik. Bakı, Elm,2004.

[11] Manafova M. Mədəniyyət tarixi və nəzəriyyəsi. Bakı, Təbib, 2006.

[12] Süleymanlı M. Azərbaycanın kulturoloji fikir tarixindən ( XX əsrin əvvəlləri ) , Bakı , “Nafta- Press” , 2011

1.Orta əsr Azərbaycan mədəniyyətində incəsənətin növlərarası əlaqələrinin tədqiqində kulturologiyanın prioritet əhəmiyyət kəsb edən determinantlarını müəyyənləşdirmək;

2.Tədqiqatın kulturoloji metodoloji vektorlarını araşdırmaq;

3.Orta əsr Azərbaycan mədəniyyətində incəsənətin morfoloji sisteminin tarixi-mədəni təhlilini vermək;

4. Kulturoloji koordinat sistemi əsasında məkan incəsənətinin növlərarası əlaqələrinin universal əsaslarını aşkara çıxarmaq;

5.İncəsənətin növlərarası əlaqələrində universal inkişaf prinsipi kimi ornamentliyin rolunu əsaslandırmaq;

6.Ornamentliyi kulturoloji obyekt kimi müəyyənləşdirmək;

7.Orta əsr Azərbaycan təsviri sənətində ornamentliyin struktur anlayışlarının fəaliyyətinin təhlilini vermək;

8.İncəsənətin növlərarası əlaqələrinin struktur məzmunlu təriflərini göstərmək.

**Tədqiqatın elmi yeniliyi.** Məkan incəsənətinin növlərarası təhlilinə kulturoloji yanaşma nöqteyi-nəzərindən Azərbaycan incəsənətinin öyrənilməsi probleminin qoyuluşu dissertasiyanın yeniliyini müəyyən edir.

Tədqiqatın yeniliyi ondan ibarətdir ki, dissertasiya işində ilk dəfə olaraq məkan incəsənətinin növlərarası təhlili kulturoloji parametrlər nöqteyi-nəzərindən yerinə yetirilir. Bizim konsepsiyaya uyğun olaraq, məhz struktur anlayışlar orta əsrlər dövründə Azərbaycan incəsənətinin bədii sisteminin vahidliyinə zəmin olmuşdur.

Dissertasiyada ilk dəfə olaraq ornamental inkişaf prinsipi əsasında memarlıq, kitab miniatürü, dekorativ-tətbiqi sənət kimi incəsənətin növlərarası variantlarının konkret modelləri aşkarlanır və qeyd olunur.

Ornamentli inkişaf prinsipi ilk dəfə olaraq kulturoloji obyekt kimi, incəsənətin müxtəlif növlərini birləşdirən prinsip kimi, orta əsr Azərbaycan bədii mədəniyyətində növlərarası əlaqələri bir-birinə bağlayan halqa qismində nəzərdən keçirilir.

Dissertasiyada əsərlərin bədii mənasının mədəniyyətin kompleks və kontekst anlamı səviyyəsində aşkar edilməsi də yeni fakt kimi təqdim olunur. Bu mənada qeyd edək ki, təhlil olunan incəsənət növlərində, növlərarası təhlilin əsasında duran və onun özünəməxsusluğunu müəyyənləşdirən fəlsəfi, estetik, tətbiqi funksiyaların sintezini anlamaq zəruri və vacibdir. Məhz bu aspektdən dissertasiyada ilk dəfə olaraq bədii sistemin Azərbaycan incəsənətinin vahid funksional-məzmunlu əsası kimi parametrləri tədqiq olunur.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiyada sənətşünaslıq üzrə metodoloji əsaslar korrelyasiya edən kulturoloji metodlara

əsaslanılmışdır. Bunların arasında kulturologiyanın sistemli tarixi-tipoloji və müqayisəli metodlarından istifadə edilmişdir.

Azərbaycan incəsənətinin növlərarası təhlilində kulturoloji əsaslar təkcə artefaktları təsvir etməyə və ya bədii hadisələri göstərməyə imkan vermir. Ən əsas məsələ Azərbaycan incəsənətinin determinantlarının yenidən qurulmasıdır. Bu növ tədqiqatın izahedici paradiqması mədəniyyətin inkişafında dərin proseslərin öyrənilməsi yolunda hədəf müddəaları və prioritet istiqamətləri aktivləşdirir.

Kulturologiyanın metodoloji vektorlarının istifadə edilməsi vacib ümumhumanitar ideyaları bədii obyektlərə köçürməyə imkan verir. Nəticədə, demək olar ki, Azərbaycanın məkan incəsənətlərinin növlərarası təhlilinin kulturoloji əsasları təkcə materialın dərindən dərk edilməsini, onun spesifikasını, tarixi inkişafının qanunauyğunluqlarını və nəzəri anlamını formalaşdırmır, həm də mədəni ənənələrin qorunmasına və saxlanılmasına yardım edən dəyərli istiqamətləri irəli sürür.

Kulturologiya materialı onun öz təkamül və struktur proqramında izah etmək statusuna malik olaraq məqsədəuyğunluq cəhdini həyata keçirir. Bu səbəbdən kulturologiya növlərarası təhlilə yeni yanaşmaları modelləşdirməyə imkan verir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyanın praktiki əhəmiyyəti Azərbaycanın elm və incəsənətinin inkişafının perspektiv məqsədi ilə bağlıdır. Kulturoloji determinantlar milli material üzərində açıqlanır. Bununla yanaşı, incəsənətin növlərarası təhlilində kulturoloji əsasların rolunu əks etdirən metodologiya bu mövzunun həm regional, həm də qlobal məkanda baxılmasına yardım edir. Bununla da, müasir humanitar elmin iki vacib vəzifəsi- Azərbaycan mədəniyyətinin dünya sivilizasiyasına verdiyi töhfənin öyrənilməsi və Azərbaycan bədii mədəniyyətinin milli paradiqmasının formalaşması həllini tapmış olur. Əlavə edək ki, dissertasiya işinin praktiki əhəmiyyəti onunla bağlıdır ki, bəşəriyyətin mənəvi həyatının mürəkkəb sahəsi kimi, incəsənət sistemi xalqın milli mədəniyyətində böyük rol oynayır. Bu aspektdə qeyd edək ki,bizim dissertasiyanın praktiki əhəmiyyəti müasir humanitar elmin iki vacib müddəasına əsaslanır. Birincisi Azərbaycan incəsənətinin milli müəyyənliyinə və dəyərinə aiddir. Azərbaycan incəsənətinin növlərarası əlaqələrinin xüsusiyyətlərinin aşkara çıxarılması Azərbaycan mədəniyyətinin bədii sisteminin spesifik bütövlüyünü əsaslandırır. Buna görə də, onun həyat qabiliyyəti, milli özünəməxsusluğu və dəyəri, yüksək mənəvi əhəmiyyətindən xəbər verir.

İkinci müddəa Azərbaycan incəsənətinin perspektivinə aiddir. Konkret mərhələnin, məhz Azərbaycan tarixinin orta əsrlər dövrünə aid

incəsənətinin növlərarası əlaqələrinin öyrənilməsi qarşılıqlı əlaqələrin modelini proqnozlaşdırmağa imkan verir, belə ki, Azərbaycanın müasir incəsənətinin peşəkar səviyyəsinə görə yüksək bədii ənənələrə əsaslanması müasir incəsənətin inkişafına imkan yaradaraq, onu fəal şəkildə dünya məkanına inteqrasiya edir. Beləliklə, məkan incəsənətlərinin növlərarası qarşılıqlı əlaqə proseslərinin əsasında duran qanunauyğunluqların öyrənilməsi müasir Azərbaycan incəsənətində prosesləri modelləşdirməyə imkan verir. Bu gün bədii mədəniyyətin sintezi və simbiozu sahəsində vizual sənətlərə xas olan geniş istiqamət müasir incəsənətdə bu proseslərin nəzəri cəhətdən dəstəklənməsinə və funksional şərhinə ehtiyac duyur. Söhbət, əsrlər boyu Azərbaycan mədəniyyəti tarixində qorunan mənəvi, estetik, bədii təcrübənin yaradıcı istifadəsindən gedir.

Dissertasiyanın materialı kulturologiya, təsviri incəsənət tarixi və nəzəriyyəsi, sənətşünaslıq üzrə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, həmçinin, incəsənət tarixi, dizayn və təsviri sənət üzrə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, bədii-qrafik mədəniyyət üzrə Azərbaycan Dövlət Pedaqoji Universitetində oxunan mühazirələrdə istifadə edilə bilər.

**Tədqiqatın materialı** orta əsr Azərbaycan mədəniyyətində təsviri sənətlərin bütün kompleksindən ibarətdir - bunlar memarlıq əsərləri, kitab miniatürü nümunələri, maddi mədəniyyətin dekorativ-tətbiqi artefaktları, xalçalar, tikmələr, keramika, zərgərlik, milli geyim nümunələridir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kulturologiya kafedrasının iclasında müzakirə edilmişdir. Dissertasiyanın əsas müddəa və nəticələri 14 nəşr işində, respublikada və xaricdə keçirilən konfransların məruzələrində əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, altı yarımfəsil, nəticə, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

Dissertasiyanın girişində mövzunun aktuallığı əsaslandırılır, problemin elmi işlənilmə dərəcəsi, işin obyekti və predmeti göstərilir, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, praktiki əhəmiyyəti, dissertasiyanın metodoloji əsasları təqdim olunur.

**Birinci fəsil "Orta əsr Azərbaycan mədəniyyətində məkan sənətlərinin növlərarası əlaqələrinin öyrənilməsində kulturoloji yanaşma"** adlanır və iki yarımfəsildən ibarətdir. **"İncəsənətin növlərarası əlaqələrinin təhlilində kulturologiyanın determinantları"** adlı birinci yarım-

fəsildə qeyd olunur ki, humanitar elmin kulturoloji əsaslarının metodologiyası bədii şüurun çoxcəhətliliyini onun tarixi və nəzəri aspektlərində əks etdirir.

Müasir kulturologiya tərəfindən elə bir tədqiqat metodları irəli sürülür ki, onlar mürəkkəb problemlərin optimal təhlilinə, öyrənilən obyektlərin çoxsəviyyəli sistemli əlaqələrini aşkara çıxarmağa imkan verir. Kulturologiya öyrənilən materiala metodologiyanın adekvatlığını təmin edir. Məlum dərketmənin metodlarının təkmilləşdirilməsinə yardım edir.

Kulturoloji əsasların unikallığı ondan ibarətdir ki, burada həm universalizm kateqoriyaları, həm də konkret bədii təcrübənin kateqoriyaları sintezləşir.

Bu mənada milli mədəniyyəti dəyərlərinin formalaşmasının öyrənilməsi, incəsənətin növlərarası əlaqələrinin yaranma prosesləri orta əsr Azərbaycan mənəvi mədəniyyətinin yeni aspektlərini üzə çıxarır.

Kulturologiya tədqiqat obyektinin öyrənilməsinin çoxcəhətliliyini təmin edir. Bununla yanaşı, incəsənətin növlərarası qarşılıqlı bağlılığı, həm də, çoxölçülü hadisədir. İki sistem - kulturoloji və bədii üst-üstə qoyularaq, möhkəm ümumiləşdirici və informativ funksiyalara malik vahid monolit yaradır.

Kulturoloji prioritetlərə əsaslanaraq incəsənətin növlərarası təhlilinin aşağıdakı parametrlər üzrə nəzərdən keçirilməsini irəli sürürük:

1.Tarixi-mədəni vektor. Azərbaycan incəsənətinin tarixi inkişafının bütün mərhələləri həm varislik, həm də Azərbaycan incəsənətinin ənənəvi mənəvi dəyərlərinin yenidən dərk olunma amillərindən ibarətdir. İncəsənətin növlərarası əlaqələrinin bu aspektdə öyrənilməsi, Azərbaycan mənəvi mədəniyyətininin milli dəyərlərini əsaslandırmağa imkan verməklə yanaşı, həm də onların geniş regional və tarixi-mədəni kontekstdə rolunu göstərir.

2.Azərbaycan incəsənətinin struktur determinantları. Uzun tarixi zaman ərzində yaranan və bu günədək fəaliyyət göstərən Azərbaycan incəsənətinin özünəməxsus xüsusiyyətləri Azərbaycan incəsənətinin bütövlüyünü və yüksək səviyyəsini sübut edir. Azərbaycan incəsənətinin universal cəhətlərinin incəsənətin növlərarası təhlil səviyyəsində aşkarlanması Azərbaycan bədii mədəniyyətinin milli bölünməzliyinin dərk olunmasına yardım edir.

Kulturologiyanın metodoloji potensialına əsaslanma Azərbaycan incəsənətinin kodlaşmasının maraqlı aspektinin öyrənilməsinə başlamağa imkan verir. Dissertasiyada tədqiq olunan Azərbaycan incəsənətinin kodlaşmasının bəzi parametrləri aşağıdakılardan ibarətdir:

1.Orta əsr Azərbaycan mədəniyyətinin vahid funksional parametrlərindən irəli gələn bədii prinsiplər;

2.İnkişafın tarixi mərhələlərinin təkamülü nəticəsində kod statusunu əldə edən Azərbaycan incəsənətinin prinsipləri;

3.Orta əsr Azərbaycan cəmiyyətində etnomədəni dəyişikliklərlə şərtlənən Azərbaycan incəsənətinin prinsipləri. Burada etnogenetik markerlər xüsusi əhəmiyyət kəsb edir;

4.Şərq bədii şüurunun anlayışları.

Məlum olduğu kimi, kulturologiya, incəsənət hadisələrini təsvir etmir, bu - bədii mədəniyyətin empirik deyil, kompleksli, inteqrativ təhlilidir. Məhz buna görə də sənətşünaslıqda kulturoloji mövqelər fənlərarası tədqiqatların geniş istifadə olunmasına imkan verir. Müxtəlif elmlərin metod və məlumatlarının kompleks istifadəsi kimi fənlərarası tədqiqatlar həm Azərbaycan bədii yaradıcılığının tarixi təkamülünə, həm də incəsənətin morfologiyasının nəzəri paritetlərinə dərindən yiyələnməyə imkan verir. Buna görə də kulturoloji əsaslara istinad konkret bədii materialda aşağıdakı tendensiyaların aşkarlanmasına yardım edir:

1. Kontekstin ensiklopediya halına salınması tendensiyasına malik olan kulturologiya artefaktların adi diferensial təhlilində görünməyən əlaqələri aşkara çıxarır. Beləliklə, incəsənətin peşəkarlığını, sənətkarlığını, yüksək səviyyəsini optimal qiymətləndirməyə imkan verən müəyyən rakurs formalaşır.

2. Kulturoloji yanaşma müxtəlif humanitar sahələri - tarixi, fəlsəfəni, etnologiyanı, komparativistikanı və s. yaradıcı şəkildə inteqrasiya etməyə imkan verir. Nəticədə komplekslilik sistemin məqsədəuyğunluğu kimi elmi təfəkkürün əsasına çevrilir.

**Birinci fəslin ikinci yarımfəsli "İncəsənətin növlərarası əlaqələrinin öyrənilməsində kulturologiyanın metodoloji vektorları" adlanır.** Bu yarımfəsildə bizim müəyyən vektorlara istinad edən elmi konsepsiyamızın metodoloji əsası konkretləşdirilir. Yəni, tədqiqatda tərəfimizdən metodologiyanın əsası kimi sistemli təhlil seçilmişdir.

Sistemli təhlilin əsas vəzifəsi sistemtəşkiledici amilin aşkarlanmasından ibarətdir. Bu müddəa bizim dissertasiya çərçivəsində üstün əhəmiyyət kəsb edir. Belə ki, orta əsrlər Azərbaycan bədii mədəniyyətində incəsənət sisteminin formalaşma determinantlarını aşkarlayaraq, biz bununla yanaşı, incəsənətin növlərarası əlaqələrinin mahiyyətini də üzə çıxarmış oluruq. İncəsənətin məhz vahid funksional məzmunu onların bütövlüyünü doğurur ki, bu da növlərarası inteqrasiyadan kənarda mümkün deyil.

Yaxşı məlumdur ki, dövrün incəsənət sistemi yalnız homogen deyil, həm də fəal inkişaf edən obyekti təcəssüm etdirir. Orta əsrlərdə bu proseslər yer almış və spesifik xarakter daşımışdır. Belə ki, estetik

mədəniyyəti təşkil edən komponentlər fəaliyyətin müəyyən qanunlarına tabe olmuşdur. Bu komponentlərin qarşılıqlı əlaqə qaydaları böyük rol oynamışdır. Özünün xüsusi yığcamlığı, bütövlüyü və tamlığına görə orta əsr Azərbaycan mədəniyyəti formalaşmış ənənələri ilə fərqlənirdi. İncəsənətin növlərarası əlaqələrində autentiklik və milli spesifika böyük rol oynayırdı. Şübhəsiz, hər bir sistem kimi öyrənilən dövrün incəsənət sistemi də çox mürəkkəb olmuş və özündə qarşılıqlı əlaqələrin ən müxtəlif - bədii, məzmunlu, strukturlu növlərini əks etdirmişdi. Lakin dissertasiya tədqiqatının çərçivəsi bunlardan birinin, çox əhəmiyyətli və vacib komponentin üzərində dayanmağa imkan verir. Bu, orta əsr Azərbaycan mədəniyyətində növlərarası əlaqələrin məna parametrlərini müəyyənləşdirir və vizual təcəssüm etdirir. Söhbət ornamentallıqdan gedir.

Azərbaycanın orta əsrlər mədəniyyətində incəsənətin növlərarası əlaqələrinin aşkarlanmasını müəyyən sistemli modellərin formalaşması əsasında aparmaq məqsədəuyğundur. Bu, incəsənətin morfoloji təsnifatının əsas determinant paritetlərinin sistemləşməsi prosesinə inteqrasiya edilməsini ifadə edir. Nəticədə, ornamentlik kimi hadisə orta əsr Azərbaycan bədii mədəniyyətinin universal sisteminin morfoloji ekvivalenti kimi çıxış edir.

Ornamentliyə bu kimi yanaşma bizi belə mövqeyə gətirib çıxarır:

1.Azərbaycanın orta əsrlər mədəniyyəti humanitar elmlərin və bədii yaradıcılığın ciddi sistemli təşkili ilə fərqlənir;

2. Orta əsr Azərbaycan incəsənəti iyerarxiyalı sistemi təcəssüm etdirir. Burada incəsənətin bütün növləri bir-birilə üzvi şəkildə bağlıdır və qarşılıqlı təmasda olaraq bir-birini tamamlayırlar;

3.Təsviri sənətin hissəsi kimi ornamentlik orta əsr Azərbaycan incəsənətinin morfoloji sistemində vacib birləşdirici prinsipdir və incəsənətin növlərarası əlaqələrinin birləşdiyi ümumi korrelyatdır.

Sistemli metod orta əsr Azərbaycan mədəniyyətində incəsənətin növlərarası əlaqələrinə komponentlərin çox səviyyəli qarşılıqlı fəaliyyətində baxmağa imkan verir. Bununla belə, incəsənətin növlərarası təhlilinin əsasında Azərbaycan tarixinin tədqiq olunan dövrünün bədii mədəniyyətinin ornamentallıq, ornamental inkişaf prinsipi kimi parlaq hadisəsi istifadə edilir.

Determinantları növlərarası təhlil prosesinə təsir edən orta əsr Azərbaycan mədəniyyətinin strukturu iyerarxiyalı xarakterə malik idi. Orta əsr mədəniyyətinin bu kimi paritetləri, markerləri arasında dövr üçün unikal olan dünya təsəvvürünün, fəlsəfənin, etnomədəniyyətin qarşılıqlı əlaqəsini göstərə bilərik. Buradan da mədəniyyətin sistemini müəyyənləşdirən mədəniyyətin bütün komponentlərinin qarışığı, birliyi əmələ gəlir.

Bizim tədqiqatda kulturologiyanın reprezentasiyası aşağıdakı kimi-

dir:

1.Artefaktların predmet səviyyəsində incəsənətin morfoloji sisteminin növlərarası əlaqələrinin təhlili;

2. İncəsənət sisteminin struktur-genetik əsasının, vahid funksional məzmununun axtarışı, başqa sözlə, öyrənilən dövrün mədəniyyətində incəsənətin müxtəlif növlərinin əsasında duran substratın, "özəyin" axtarışı.

3. Orta əsr Azərbaycan bədii mədəniyyəti kontekstində prioritet olan incəsənətin müxtəlif növlərində - memarlıqda, miniatür rəssamlıqda, dekorativ-tətbiqi sənətdə universal struktur prinsiplərin aşkar edilməsi;

4.Struktur elementin identifikasiyası və onların funksional məzmununun identikliyinin təsdiqi.

İncəsənətin növlərarası əlaqələrini biz bu tiplər üzrə differensiasiya edirik:

1. Bu əlaqələrin genezisini əks etdirən növlərarası əlaqələr;

2. Növlərarası əlaqələrin tarixi-mədəni şərtlənməsi;

3. Struktur anlayışların məzmunlu tipologiyası.

Deyilənlərə əsasən qeyd edək ki, artefaktların kulturoloji öyrənilməsinin əsas prinsiplərindən biri tarixilik prinsipidir.

Dissertasiyada qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi incəsənətin növlərarası əlaqələri proseslərinə tarixi baxış vasitəsilə mümkündür. Belə ki, tarixin hər bir dövrü mənəvi mədəniyyətin formalaşması və inkişafının konkret prosesləri, ənənələri ilə fərqlənir.

Biz incəsənət sisteminin tarixi-mədəni şərtlənməsinə əsaslanırıq, belə ki, incəsənətin növlərarası əlaqələri kontekstlə bağlı olmuşdur. Buna görə də, Azərbaycan incəsənəti mədəniyyətin qiymətli tərkib hissələrindən birini təşkil edir. Azərbaycan tarixində əsrlər boyu müəyyən bədii normalar, ənənələr məcmusu fəaliyyət göstərmişdir. Buna görə də incəsənətin növlərarası əlaqələrinin tarixi aspektləri xüsusi əhəmiyyətə malikdir, belə ki, Azərbaycan incəsənətinin quruculuq mahiyyətini konkretləşdirməyə və dərinləşdirməyə imkan verir.

Bizim tədqiqatda tarixilik prinsipi artefaktlarda tarixən şərtlənən üslub mövqelərinin təzahürlərinin çoxqatlılığına fərqli yanaşmağa imkan verir. Bununla belə, Azərbaycanın orta əsrlər incəsənətin növlərarası əlaqələrinin xüsusiyyətlərini araşdırmaq və onların əsas determinantlarını müəyyənləşdirmək mümkündür. Bu kontekstdə tarixçilik prinsipinin dərkedici funksiyası dünyagörüşü məqsədini təmsil edir. Dünya mənzərəsi, dünya təsəvvürü paritetləri incəsənətin üslubunda və ifadəli gücündə həlledici olur. Təhlilin göstərdiyi kimi, Azərbaycan tarixinin baxılan dövründə incəsənət əsərlərinin ifadəli gücündə növlərarası əlaqələr böyük rol oynayır.

Beləliklə, kulturologiya şübhəsiz, müasir sənətşünaslığın yaradıcı

prioritet olduğunu göstərir. Qeyd edək ki, müasir sənətşünaslığın təkmilləşməsi, inkişafı Azərbaycan bədii mədəniyyətinin tarixi və nəzəriyyəsinin yeni metodoloji yanaşmaları ilə bilavasitə bağlıdır.

**İkinci fəsil "Orta əsr Azərbaycan mədəniyyətində incəsənətin növlərarası əlaqələrinin tarixi-mədəni təhlili" adlanır** və iki yarımfəsildən ibarətdir. **Birinci yarımfəsil – "İncəsənətin növlərarası əlaqələrinin anlayışları. Ornamentallıq kulturoloji obyekt kimi"** adlanır. Bu yarımfəsildə qeyd edilir ki, morfoloji sistemdə incəsənətin növlərarası əlaqələrinin aşkarlanması tədqiqatın bir neçə səviyyəsində baş verir. Bunlar növlərarası əlaqələrin proseslərini optimal göstərməyə, onların mənbələrini üzə çıxarmağa və konkret nəticələr almağa imkan verir. Orta əsr Azərbaycan mədəniyyətinin incəsənət materialında bu çoxsəviyyəli sistemin tərkib hissələri aşağıdakı komponentlər olacaq:

1. Təhlil olunan dövrün humanitar əsasları;

2. Memarlığın, Təbriz miniatürünün, dekorativ-tətbiqi artefaktların struktur komponentlərinin tipoloji təhlili;

3.Funksional kompozisiya parametrlərini ehtiva edən elementlərin aşkarlanması. Məsələn, təkrar və dəyişkənlik, struktur elementlərin ilişməsi, ornamentliyin əsası kimi vahid özəkdən böyümə prinsipi.

İncəsənətin hər bir növünün bütün komponentləri həm daxili, həm də növlərarası əlaqələr səviyyəsində qarşılıqlı fəaliyyət göstərirlər. Yalnız bu yolla bu və ya digər dövrün incəsənətinin morfoloji sistemi yaranır. Beləliklə, növlərarası əlaqələrin binarlığı təşkil olunur. Bir tərəfdən, bu və ya digər incəsənət növünün daxili, genetik, immanent xüsusiyyətlərilə şərtlənən əlaqələri fəaliyyət göstərir. Digər tərəfdən, incəsənətin əhəmiyyətli əlaqələri konkret kontaktlar, məzmunlu və struktur formaların mənimsənilməsi prosesində yaranır.

Orta əsr Azərbaycan incəsənət sisteminin kulturoloji təhlili bizi inandırır ki, incəsənətin məhz növlərarası əlaqələri yaradıcı funksiyaya malik olmuşlar. Öyrənilən dövrdə incəsənətin morfoloji sisteminin qarşılıqlı şərtlənməsi bu əlaqələrin öyrənilməsinin zəruriliyini və sistemli tədqiqatın aktuallığını təsdiq edir. Bu mənada növlərarası əlaqənin beş səviyyəsini ardıcıl tədqiq etmək məqsədəuyğundur:

1. Orta əsr Azərbaycan mədəniyyətinin tarixi konteksti;

2. İncəsənətin ayrı-ayrı növlərinin təsnifləşdirmə tipologiyası;

3. Təhlil olunan dövrün incəsənətinin vahid funksional məzmununun ümumi qanunauyğunluğu;

4. Ornamentlik incəsənətin növlərarası əlaqələrində struktur vahid kimi;

5. Orta əsr Azərbaycan bədii mədəniyyətində yeni üslubi sistemin

yaranması.

Ornamentlik tərəfimizdən kulturoloji obyekt kimi nəzərdən keçirilir. Bu, ornamentliyi incəsənət sisteminin hansısa makrokosma nöqteyi-nəzərindən öyrənməyə və şərh etməyə, Azərbaycan incəsənətinin bütün növlərinə xas olan müəyyən ümumi kateqoriyaları hesablamağa imkan verir.

Azərbaycan incəsənətində ornamentlik incəsənətin növlərarası əlaqələrinin tədqiqində bu prinsipi vacib edən xüsusiyyətlərə malikdir:

1. Ornamentlik Azərbaycan mədəniyyətinin tarixi məkanında özünün əsas əlamətlərinin təzahürünün optimal dərəcədə dayanıqlığına malikdir.

2.Ornamentlik universaldır, belə ki, Azərbaycan incəsənətinin bütün növlərində özünü göstərir.

3. Ornamentlik, dərin genetik əsaslarına görə dünya quruluşunun təməlini əks etdirməyə qadirdir.

Ornamentliyin möhkəm hərəkətverici determinantları–strukturun dinamikası və ayrıca elementlərin simvolikası şüurun dərinliklərinə girməyə və istənilən dövrün dünya mənzərəsini adekvat təsəvvür etməyə imkan verir.

Azərbaycan incəsənətində ornament simvolikası kontekstində yaranan assosiativ əlaqələr özünün klişeli formalarının təfsirinin sabitliyi ilə fərqlənir. Burada dünya təsəvvürünün ötürülməsinin autentikliyi mövcuddur ki, bu da gerçəklik anlamında diaxronik sıraların qurulmasına imkan verir. Həmçinin, bu xüsusiyyətin spesifik xarakterliyini incəsənətin müxtəlif növlərində - xalçada, keramikada, geyimdə, musiqidə, memarlıqda, ədəbiyyatda, bütövlükdə morfoloji sistemdə qeyd edək.

Vacib mövqe ondan ibarətdir ki, ornamentli inkişaf prinsipi bədii mədəniyyətin tarixi qatlarının bərpasına imkan verir. Bu halda mədəniyyətin bərpası, hər şeydən öncə, tipologiyaların və sistemyaradıcı əlamətlərin modelləşməsini nəzərdə tutur.

Qeyd edək ki, orta əsr mədəniyyətinin xüsusi inteqrativ cəhəti öz elementlərinin müəyyən və vacib əlaqələrinə əsaslanırdı. Xarakterik olan budur ki, dissertasiyada çıxış edən əlaqələrin yekun amili ornamentliklə eyniləşdirilən ümumiləşmədir. Bu da növlərarası əlaqənin birbaşa olaraq həm mənbəyi, həm də əsasıdır. Beləliklə, öyrənilən dövrün bədii üslubuna xas olan yaradıcılığın məhz ornamental təbiəti orta əsr Azərbaycan mədəniyyətində vahid funksional məzmun rolunu öz üzərinə götürməyə qadir idi.

Bizim konsepsiya Azərbaycan incəsənətinin öyrənilməsində kulturoloji parametrlərin istifadəsi problemlərinin konkret metodoloji həlli kimi düşünülür, belə ki, əvvəlki fəsildə göstərildiyi kimi, kulturologiya müxtəlif elmlərin mövqelərini inteqrasiya edir və bu mənada müxtəlif növ qarşılıqlı

proseslərin öyrənilməsi üçün olduqca məhsuldardır.

**İkinci fəslin ikinci yarımfəsli "Morfoloji sistemin öyrənilməsində etnomədəni və fəlsəfi aspektlər"** adlanır. Bu yarımfəsildə belə bir fikir irəli sürülür ki, kulturoloji mövqelərə istinad edərək Azərbaycan incəsənətinin, xüsusən, incəsənətin növlərarası əlaqələrinin əsası kimi inkişafın ornamental prinsipinin sənətşünaslıq bərpasını verə bilirik.

Ornamentlik Azərbaycan mədəniyyəti tarixinin öyrənilən dövründə incəsənətin növlərarası əlaqələrinin əsasında durur. Bu ona görə baş vermir ki, ornamentlik incəsənətin müxtəlif növləri ilə bu və ya digər dərəcədə harmonik bağlıdır. Daha dərin səbəblər ondan ibarətdir ki, məhz ornamentlik xüsusi genetik əhəmiyyətli və vacib imkanlara malikdir. Dərin etnomədəni köklərinə görə ornamentlik özünün ifadə vasitələrinin dayanıqlığı hesabına incəsənətin müxtəlif növlərini vahid bədii sistemdə birləşdirən müəyyən konstanta kimi çıxış etmək qabiliyyətinə malikdir. Yaradıcılığın ornamentli təbiəti kimi nəzərdən keçirilən incəsənətin növlərarası əlaqələri orta əsr Azərbaycan mədəniyyətində özünü parlaq göstərən sistemin vahidliyini və onun dərin mənbələrini parlaq şəkildə əks etdirir.

Orta əsr Azərbaycan incəsənətinin bədii sistemində ornamentlik praktiki olaraq incəsənətin bütün növlərinə xasdır. Bununla yanaşı, ornamentlik orta əsr dövrünün bədii üslubunun müəyyənedici tərkib hissəsidir. Qeyd etmək vacibdir ki, ornamentin vurulduğu materialın müxtəlifliyinə, həmçinin, konkret incəsənət əsərlərinin texniki icra üsullarına baxmayaraq, ornamentlik oxşar kompozisiya əsasına malikdir.

Ornamentdə müəyyən bədii məzmun kodlaşmışdır. Ornamentliyin təsir gücü məhz bundadır- ornamentliyin insan şüurunun ən dərin səviyyəsinə təsir etmək qabiliyyəti. Ornamentlik orta əsr Azərbaycan incəsənətinin bütün növlərində mövcuddur. Beləliklə, universal xüsusiyyətli xarakter əldə edir.

Orta əsrlər Azərbaycanda dünyanın təsəvvürü iyerarxiyalılığı, differensiasiyalılığı ilə fərqlənirdi. Orta əsrlər dövründə ornamentli üslubun geniş yayılmasının bir neçə səbəbi vardı. Canlı varlıqların təsvirinə qoyulan qadağadan başqa, digər səbəblər də mövcud idi. Belə ki, ornamentlik, ornamentin ayrıca elementləri və simvolikası artefakt və onu qavrayan seyrçi arasında vacib kommunikat idi. İncəsənətin müxtəlif növlərini ornamentin məhz bu kommunikativ funksiyası birləşdirirdi.

Demək olar ki, ornamentlik təhlil olunan dövrün incəsənət əsərlərinin üzvi qavranılmasına yardım edirdi. İncəsənətin bəzi növlərində ornamentlik əsas komponent olurdu, məsələn, xalçalarda, digərlərində tətbiqi məqsədlərdən və materialdan asılı olaraq modifikasiya edilirdi, məsələn, keramikada, ağacda, sikkə zərbində, zərgərlik əşyalarında və s. Bəzi hallarda

ornamentlik strukturun əsas prinsiplərini saxlayaraq transformasiya olunurdu.

Göstərilən modifikasiyalar incəsənətin bağlayıcı bazası kimi, incəsənətin növlərarası əlaqələrində vahidliyi təmin edən vacib faktor kimi ornamentliyin əhəmiyyətini yalnız gücləndirirdi. Ornamentlik hər yerdə özünün əsas məzmunlu və konstruktiv determinantlarını qoruyur.

Ornament konstruksiyasında fəlsəfi təsəvvürlərin təsiri geniş yayılmışdır. Qavrama və anlamanın iyerarxiyası əhəmiyyətli rol oynayırdı. Bu yarımfəsildə Yaxın Şərq mədəniyyətinin bəzi mənəvi və struktur korrelyantları nəzərdən keçirilir. Belə ki, orta əsr Yaxın Şərq cəmiyyətinin mənəvi fəaliyyətini, hər şeydən öncə, bədii şüurun bütövlüyü və bölünməzliyi fərqləndirir. Bununla mədəniyyətin sintetizmi, biliyin ensiklopedikliyi müəyyənləşir. Struktur parametrlərə, bir tərəfdən, normativlik, müəyyən hallarda stereotiplik, digər tərəfdən, kanon və improvizasiyanın konkret formalarında statika və dinamikanın iyerarxiyalı tabeli qanunauyğunluqları aiddir. Müvafiq olaraq, bizim tarixi-kulturoloji kontekstli təhlilimiz müəyyən fəlsəfi kateqoriyalara əsaslanır. Belə ki, mənəvi fəaliyyətin formalarının qarşılıqlı bağlılığı aşağıdakılarda əksini tapmışdır:

1. Biliyin ensiklopedikliyi;
2. Bədii şüurun bütövlüyü, bölünməzliyi;
3. Mədəniyyətin sintetizmi;
4. Vahid bədii stereotiplər;
5. Yaradıcılıq modellərinin klişeliyi;
6. Kanon və improvizasiya əsasında struktur qanunauyğunluqları;
7. Statika və dinamikanın xüsusi uzlaşması.

Orta əsr Azərbaycan mədəniyyətində incəsənət və fəlsəfə sıx bağlı idi. Bu dövrün görkəmli mütəfəkkirlərinin əsərlərində dünya quruluşunun şərhi poeziya, incəsənət, memarlıqla üzvi surətdə bağlı idi. Dünyanın dərki nəzəri biliklərin və insanların praktiki fəaliyyətinin sintezinə əsaslanırdı.

Burada xüsusi olaraq üç komponenti – səbəb, inkişaf və yekun nəticənin olmasını qeyd edək. Bu mənada inkişafın immanent anlamı - monizm ideyası xüsusi əhəmiyyətə malikdir. Başlanğıcın fəlsəfi prinsipi, şübhəsiz ki, orta əsrlər Azərbaycanın dünya baxışının xüsusiuyyətlərini müəyyən edirdi. Birmənalı şəkildə demək olar ki, növlərarası əlaqələrin böyük rol oynadığı Azərbaycan incəsənətinin vahid sisteminin yaranmasında monizm xüsusi əhəmiyyət kəsb edirdi.

Monizm, ərəb-müsəlman mədəniyyəti çərçivəsində dünyagörüşü kateqoriyası kimi aşağıdakı determinantlara malik idi:

1. Vahid başlanğıc, ilkin impuls prinsipi;
2. Tamın ilkin başlanğıcdan yaranması;

3. Bu ilkin başlanğıcın ifadəsinin müxtəlifliyi;

4. Strukturun dəqiq motivasiyasının bütövlüyü, daxili monolitliyi.

Monizm bu və ya digər mətni istehsal etməyə qadir olan ilkin impuls, ilkin şey kimi orta əsr Azərbaycanda fəlsəfi dünya təsəvvürünün vacib tərkib hissəsidir. Bu mənada qeyd edək ki, orta əsr Azərbaycan incəsənətinə vahid tam kimi formanın immanent anlamı xasdır. Həqiqətən də, ornamentin ilkin başlanğıcı, ilkin əsası - bütün ornamental kontekstə artım verən elementdir.

Ornamentli sənətdə ilkin model həm ilkin impuls, həm variantlı inkişafın hər cür ideyalarının mənbəyi kimi, həm də bütün kompozisiyanın möhkəmlənməsinə xidmət edir. Vahid ilkin formula bütün strukturu modelləşdirərək, bütün mətni təbəqələşdirir.

Monizmin daxili niyyəti orta əsr Azərbaycan mədəniyyətinin bütün sahələrində öz əksini tapmışdır. Fasiləsiz uzanan hərəkətin, bir elementdən digərinə çoxsaylı struktur keçidlərinin obrazı monizmin struktur dominantı olur. Kompozisiya hissələrinin üzvi varisliyi tamı möhkəmlədən daxili əsasa söykənir. Bu şəraitdə qeyd edək ki, ornamentlik, inkişafın ornamentli prinsipi təkcə bədii yaradıcılığın bütöv morfoloji mənzərəsini deyil, həm də incəsənətin növlərarası əlaqələrinin ayrıca xüsusiyyətlərini tədqiq etmək imkanı verir.

**Üçüncü fəsil "İncəsənətin növlərarası təhlilində ornamentliyin struktur-universal prioriteti"** adlanır. Fəslin **birinci yarımfəsli "İncəsənətin morfoloji sisteminin növ definisiyaları"** adlanır və burada orta əsr Azərbaycan mədəniyyətində incəsənətin ayrı-ayrı növləri nəzərdən keçirilir. Bu yarımfəsildə ornamental "qohumluq" əsasında incəsənətin morfoloji sisteminin dəqiq konturlarını müəyyənləşdirərək incəsənətin müxtəlif növlərinin bir-biri ilə qarşılıqlı fəaliyyəti göstərilir.

Bununla belə, nəzərə alaq ki, ornamentliyin şərhində aşağıdakılar həlledici rol oynayırdı:

1. Konkret material,
2. Tətbiqi funksiyalar,
3. Artefaktin struktur konteksti.

Ornamentlik memarlıq abidələrinin kompozisiyasının bütün səviyyələrində özünü göstərirdi. Məsələn, ornamentlə zəngin bəzənmiş təntənəli giriş portalları, geniş yayılmış dar yarığa bənzər pəncərələr bütün binanın kontekstində ornament xassəli ritmik sıra təəssüratı yaradırdı. Bundan əlavə, bir qayda olaraq, belə pəncərələr ornamentləşir və orta əsrlər dövründə Azərbaycanda binaların ornamental tamında ikili səviyyə yaradırdı. Ayrı-ayrı memarlıq elementlərinin relyefli oyması, çoxtəbəqəli memarlıq kompozisiya strukturlarını qeyd edək. Öyrənilən dövrün memar-

lığında, xüsusən, dini binalarda ərəb epiqrafik yazısının qısadan başlayaraq geniş zolaqlarınadək kufi üslubu geniş yayılmışdı. Dissertasiyada memarlıq abidələrinin daxili strukturu ornamentin məkan kompozisiyası nöqteyi-nəzərindən şərh edilə bilən nümunələr əsasında göstərilmişdir.

Memarlıq əsərlərinə monumental tikililərin çoxrəngli keramik üzlükləri xüsusi ifadəli dərinlik verirdi. Polixrom boya hesabına əhəmiyyətli bədii effekt əldə edilir. Beləliklə, daş elementlərdən yaranan ornamentlə yanaşı, rəngli ornament də memarlıq kompozisiyasının ayrılmaz hissəsini təşkil edir.

Orta əsrlər Azərbaycan mədəniyyətində memarlıq əsərlərinin ayrılmaz hissəsi kimi ornament - öyrənilən dövrdə memarlığın yeni tərkib hissəsi olan daş üzərində bədii oymanın yaranmasına yardım etmişdir. Mayolik plitələr memarlıq tikililərinə özünəməxsusluq verirdi. Mozaika əmələ gətirərək onlar hər bir əsərə spesifik gözəllik və fərdilik bəxş edirdilər. Həmçinin, qeyd edək ki, müəyyən əsərlərdə ornamentallıq memarlıq əsərinin kompozisiyasına sadəcə olaraq tabe olmur, belə bir təəssürat yaranır ki, sanki inkişafın ornamentli prinsipi öz ardınca strukturu "aparır".

Şübhəsiz ki, incəsənətin hər növündə ornament spesifikdir və incəsənətin həmin növünün fəaliyyətinin qanunlarına tabedir.

Ornament orta əsr Azərbaycan mədəniyyətinin memarlıq nümunələrinin daş səthlərinə sadəcə daxil edilmir. Memarlıq əsərlərinin ornamentləri memarlıq formalarının spesifikası ilə sintezləşdirilir və bu formaların ayrılmaz funksional xüsusiyyəti olur. Beləliklə, bu və ya digər ornament "ideya" sayəsində binanın tektonikliyi vurğulanır, onun aparıcı kompozisiya strukturları daha aydın seçilir, struktur bölmələr daha ifadəli olur, memarlıq əsərinin məzmunluğu və semantikası dərinləşir. Orta əsr Azərbaycan memarlıq əsərlərində ornamentin aydın çəkilməsi xüsusi təntənəli dekorativliyi ilə fərqlənirdi. Bütöv ornamental kompozisiyalar onlara spesifik səciyyə verən memarlıq forması ilə ahəngdarlıqla qovuşurdu.

Kitab miniatüru nümunələrinin təhlilində vurğulanır ki, incəsənətin qarşılıqlı əlaqələri Azərbaycan bədii mədəniyyətinin fəaliyyətində çox vaxt spesifik aspektlər formalaşdırırdı. İncəsənətin qarşılıqlı əlaqələrinin belə təzahürlərindən biri kitab miniatürlərinin kompozisiya xüsusiyyətləridir.

Təbriz miniatüründə ornamentlik miniatürün ümumi kompozisiyanın inkişafında özünü ahəngdar göstərir, elementlərin mürəkkəb differansiasiyası ilə fərqlənir, bununla yanaşı, miniatürün bütövlüyünü təşkil edir. İncəsənətin bu növündə ornamentlik kontekstində üzvi qoşulmanı, onun kontekstdə hərəkətliliyini, ornamentin elementlərinin quruluşunun hərəkətliliyini, kontekstin plastikliyini və sərbəstliyini qeyd edək.

Bu yarımfəsildə orta əsr Azərbaycan mədəniyyətində incəsənətin

növlərarası əlaqələrinin memarlıq və kitab miniatürü nümunələrində nəzərdən keçirilən parametrləri göstərir ki, incəsənətin təsviri növlərini birləşdirən ən universal prinsip inkişafın ornamentli prinsipidir.

**Üçüncü fəslin "Orta əsr Azərbaycan bədii mədəniyyətinin homogen xarakteristikalarında ornamentliyin struktur əsaslarının rolu"** adlı ikinci yarımfəslində orta əsr Azərbaycan mədəniyyətində incəsənətin növlərarası əlaqələrinin ümumi funksional əsasları araşdırılır. Vurğulanır ki, kulturoloji yanaşma kontekstli və kompleksli təhlili sintez etməyə imkan verir. Başqa sözlə desək, incəsənətin növlərarası təhlili müəyyən kontekstin öz tarixi konkretliyində kompleksli vəhdətin təhlili kimi aparılır. Bu yanaşmaların sintetikliyi bizim tədqiqatın zəruri hissəsini təşkil edir, belə ki, incəsənətin növlərarası təhlilinin müəyyən komponentlərinin göstərilməsi və təsviri üzvi surətdə vahid sistemə daxil edilir.

Təkrar və variantlıq kimi fundamental genetik xassələrin təzahürünün xüsusiyyətləri tədqiq edilir, vurğulanır ki, təkrar və variantlıq incəsənətin inkişafında əhəmiyyətli struktur cütlük kimi milli üslub kontekstində yerinə yetirilir və Azərbaycan incəsənətinin bütün növlərinə xasdır. Bu isə ornamentlərinin xüsusi zənginliyi və müxtəlifliyi ilə fərqlənən xalça sənətinə aiddir. Xalça məmulatlarında təkrarlıq mürəkkəbliyi, təzahürün çoxsəviyyəli xarakteri ilə fərqlənir.

Xalça ornamentinin digər struktur dominantası müxtəlif elementlərin kombinasiyası yolu ilə baş verən vahid mənbədən yetişməsidir. Bu zaman ornamentli şəklin rəvan axıcılığı mətnin ümumi konstruksiyasının məntiqinin dəqiqliyi ilə uzlaşır. Burada forma yaranması yolları kifayət qədər çoxdur.

Bu yarımfəsildə, həmçinin, kanon və improvizasiya, barelyeflik, çıxıntılı qatlarla hərəkət, pillələlik kimi struktur prinsiplər tədqiq edilir. Bunlar ornamentliliklə şərtlənən konstruktiv elementlərin mərkəzləşdiyi ornamentliliyin fəaliyyəti prinsiplərinin dinamikliyinə əsaslanır.

Bu yarımfəsildə göstərilir ki, Azərbaycan incəsənətində yaradıcılığın ornamentli təbiətinin məna determinantları universal dünyagörüşü əsaslarına aid edilir. Burada mədəni-tipoloji xarakteristikalar dominantlıq təşkil edir.

Azərbaycan maddi mədəniyyətində ornament elementlərinin uyğun gəlməsi, ornamentlərin şəklinin və strukturunun identikliyi xalçalara və çəki işlərinə, basma parçalara, mis və saxsı qablara, taxtadan, gümüşdən, misdən, daşdan hazırlanan məmulatlara aiddir. Ornament ustalığına mükəmməl yiyələnmiş zərgərlərin, inkrustatorların əsərləri ornamentli bəzəklərin gözəlliyi ilə fərqlənirdi. Ornament həllinə identik yanaşmada ifadə olunan üslub eyniliyi, şübhəsiz, metaldan hazırlanan bədii məmu-

latları da fərqləndirirdi.

Bu yaımfəsildə belə bir fakt irəli sürülür ki, ornament determinasiyalı obyekt kimi öz quruluşunun bütün səviyyələrində özünün universal potensialını açır. Tətbiqi əlaqələrdən başqa, burada ornamentə incəsənətin müxtəlif növləri kontekstində əks olunmağa imkan verən kompozisiya və morfoloji xüsusiyyətlər sırası fəaliyyət göstərir.

Orta əsrlər mədəniyyəti dövründə fəlsəfi fikirlərin artefaktların praktiki məqsədəuyğunluğu ilə ifadəsini sintezləşdirən bədii sənətkarlığın ənənələri formalaşmışdı. Müşahidələrimiz əsasında aşağıdakı üç bənddə orta əsrlər Azərbaycanının bədii sistemində dekorativ-tətbiqi sənətin xüsusiyyətlərini ümumiləşdirə bilərik:

1.Dekorativ-tətbiqi sənət əşyalarının yaranmasında sənətkarlığın yüksək səviyyəsi;

2. Təhlil edilən dövrün mühüm fikirlərinin -tarixi, fəlsəfi, kosmoloji, mifoloji artefaktlarda əks olunması;

3. Hər bir artefaktın praktiki məqsədəuyğunluğunun konkretləşdirilməsi.

Orta əsrlər Azərbaycan mədəniyyətinin tarixi dövründə ornament strukturu prinsiplərinin formalaşması inkişafın ornamentli prinsipinin xüsusiyyətlərini müəyyənləşdirən bir neçə tərkib hissələrinə əsaslanırdı.

1. Genetik sıranın xüsusiyyətləri ornamentliyin dərin, qədim kökləri ilə şərtlənir. Azərbaycanın maddi mədəniyyəti tarixindən olan artefaktlar törədici funksiyaya malik idi. Zəngin arxeoloji məlumatlar ornamentli əşyaların mövcudluğunu təsdiq edir.

2. Tarixi sıranın xüsusiyyətləri. Orta əsrlər dövrünü daxil etməklə Azərbaycan incəsənətinin inkişafı tarixi ərzində ornamentlik bu və ya digər üslub istiqamətləri ilə paralel təkamül edirdi. İfadə vasitələri sisteminə üzvi surətdə daxil olaraq ornamentlik Azərbaycan tarixinin bu və ya digər dövrünün dünyagörüşü xüsusiyyətlərini əks etdirirdi.

3. Emosional–psixoloji sıranın xüsusiyyətləri. Bunlara incəsənətin mühüm kommunikatlar əmələ gətirən ornamentallığın suqqestiv xüsusiyyətləri aiddir.

İncəsənət tarixi göstərir ki, incəsənətin növlərarası prinsipləri və qanunauyğunluqları, ornamentli incəsənətin formalaşması şərtləri dəyişir. Bununla yanaşı, incəsənətin morfologiyası daimi dominanta malik olur.

**Nəticədə** dissertasiyada əldə olunmuş elmi qənaətlər verilmişdir.

1. Dissertasiyada müasir humanitar elmdə incəsənətin öyrənilməsinə kulturoloji yanaşma əsaslandırılmışdır;

2. İncəsənətin növlərarası əlaqələrinin tədqiqində müəyyən metodoloji vektorlar–sistemli metod, tarixilik metodu və müqayisəli-tipoloji metod

seçilmişdir;

3.Dissertasiyada incəsənətin növlərarası əlaqələrinin öyrənilməsində kulturoloji metodların prioritetliyi orta əsr Azərbaycan mədəniyyətində incəsənətin tarixi-mədəni təhlili ilə təsdiq olunur;

4. Azərbaycan incəsənət tarixinin kulturoloji anlamında incəsənətin növlərarası təhlilinin prinsipləri Azərbaycan incəsənətinin öyrənilən dövrə aid morfoloji təsnifatına əsaslanmışdır;

5.Azərbaycan incəsənət əsərlərinin kulturoloji təfsirləri sinxron təhlilə əsaslanmışdır ki, bu da ornamentliyi incəsənətin növlərarası əlaqələrinin başlıca həlqəsi kimi nəzərdən keçirməyə inandırır;

6 Ornamentliyin kulturoloji obyekt kimi şərhi fənlərarası tədqiqatı gücləndirir, orta əsr Azərbaycan incəsənətində milli modelləri aşkara çıxarır.

Kulturologiya aspektində incəsənətin növlərarası əlaqələrinin öyrənilməsi Azərbaycanın bədii mədəniyyətinin inkişafında makro-tarixi prosesləri araşdırmağa imkan verir. Belə ki, bədii mədəniyyətin zaman və məkanda retrospektiv öyrənilməsi incəsənətin növlərarası əlaqələri proseslərinin mahiyyətini anlamaqla yanaşı, həm də bunun əsasında Azərbaycan tarixinin bu və ya digər dövrünün düzgün dünya mənzərəsini qurmağa imkan verir.

**Dissertasiyanın əsas elmi nəticələri müəllifin aşağıdakı nəşrlərində öz əksini tapmışdır:**


1. О культурологических детерминантах межвидового анализа азербайджанского искусства. Bakı, Mədəni həyat, № 10, 2014, s. 92-95.
2. О некоторых особенностях орнаментальности. Bakı, Mədəni həyat, № 11, 2014, s. 95-97.
3. Философские принципы и искусства в художественной культуре Азербайджана. Bakı, Mədəni həyat, № 12, 2014, s. 93-96.
4. О межвидовом анализе искусств в контексте культурологи. Bakı, Mədəniyyət dünyası, XXVII, ADMİU, 2014, s. 26-34.
5. О культурологических основаниях в изучении проблем искусствоведения. Bakı, Elmi əsərlər, № 10, 2014, s. 8-23.
6. О параметрах системного метода в изучении азербайджанского искусства. Bakı, "Memarlıq, şəhərsalma tarixi və bərpası" toplu, № 1(11), 2016, s. 213-218.
7. Орнаментальность как важнейшая из универсалий азербайджанского искусства. Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. Материалы III Международной научно-

практической конференции. Пятигорск, 1-5 февраля, 2016, с. 122-125.
8. Методологический потенциал культурологии и изучение азербайджанского искусства. «Поиск» Международный научный журнал, Казахстан, 2016, с. 127-130.
9. О межвидовых связях искусств в культуре средневекового Азербайджана. Ədəbiyyat incəsənətin qarşılıqlı inikası kontekstində. Məqalələr tolusu. Bakı, Qərb Universitetinin mətbəəsi, 2016, s. 215-219.
10. О культурно-историческом изучении межвидовых связей искусств. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XV Beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, 02 may, 2016, s. 37-38.
11. О межвидовых связях искусств в морфологической системе средневекового Азербайджана. Bakı, "Memarlıq, şəhərsalma tarixi və bərpası" toplu, № 1(13), 2017, s. 160-164.
12. К вопросу о традиции и новаторстве в современной архитектуре Азербайджана. Müstəqillik dövründə Azərbaycan təsviri sənətinin inkişafı. I Respublika elmi-nəzəri konfrans. Bakı, ADMİU, 2017, s. 116-118.
13. Орнаментальность как культурологический объект. http://harmony.musigi-dunya.az/RUS/reader.asp?txtid=752&s=1, b. 17, 2018.
14. Универсалии межвидовых связей искусств в культуре Средневекового Азербайджана. Musiqi dünyası, № 1-74, 2018. s.54-55

Саялы Шахин кызы Кулиева

# КУЛЬТУРОЛОГИЧЕСКИЕ АСПЕКТЫ МЕЖВИДОВЫХ СВЯЗЕ В ИСКУССТВЕ СРЕДНЕВЕКОВОГО АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

В введении обосновывается актуальность темы диссертации, рассматриваются степень научной разработанности проблемы, объект и предмет работы, выдвигаются цель, задачи исследования, научная новизна, практическая значимость, методологическая основа диссертации.

Первая глава – «Культурологический подход в изучении межвидовых связей пространственных искусств в культуре средневекового Азербайджана». В первом параграфе – «Детерминанты культурологи в анализе межвидовых связей искусства» подчеркивается, что методо_-логия культурологических оснований гуманитарной науки отражает многогранность художественного сознания в его историческом и теоретическом аспектах. Второй параграф первой главы - «Методологические векторы культурологии в изучении межвидовых связей искусств». В данном параграфе конкретизируется методическая основа нашей научной концепции, которая зиждется на определенных векторах, а именно – системном анализе.

Вторая глава «Историко-культурный анализ межвидовых связей искусств в культуре средневекового Азербайджана». В первом параграфе – «Универсалии межвидовых связей искусств. Орнаментальность как культурологический объект». В данном параграфе отмечается, что выявление межвидовых связей искусств в морфологической системе происходит на нескольких уровнях исследования, позволяющих оптимально показать процессы межвидовых связей, раскрыть их истории и получить конкретные результаты.

Во втором параграфе «Этнокультурные и философские аспекты в изучении морфологической системы искусств» постулируется идея о том, что опираясь на культурологические позиции, можно произвести искусствоведческую реконструкцию азербайджанского искусства, а именно, орнаментального принципа развития как основы межвидовых связей искусств.

Третья глава – «Структурно-универсальные приоритеты

орнаментальности в межвидовом анализе искусств». В первом параграфе третьей главы – «Видовые дефиниции морфологической системы искусств» рассматриваются отдельные виды искусств в культуре средневекового Азербайджана. В данном параграфе показано, как разные виды искусств взаимодействовали друг с другом, определяя четкие контуры морфологической темы искусств на основании орнаментального родства.

Во втором параграфе третьей главы - «Роль структурных основ орнаментальности в гомогенных характеристиках художественной культуры средневекового Азербайджана» рассматриваются общие функциональные основания межвидовых связей искусств в культуре средневекового Азербайджана.

В заключении формулируются основные выводы диссертации.

Sayali Shahin kizi Kuliyeva

CULTURAL ASPECTS OF INTERTYPE RELATIONS IN THE MEDIEVAL AZERBAIJANI ART

## SUMMARY

In the introduction, the urgency of the topic of the dissertation is justified, the degree of scientific elaboration of the problem, the object and the subject of the work, the goal, the research objectives, the scientific novelty, the practical significance, the methodological basis of the dissertation are put forward.

The first chapter is - "Cultural Approach in the Study of Inter-Specific Links of Spatial Arts in the Culture of Medieval Azerbaijan". In the first paragraph - "The determinants of cultural studies in the analysis of interspecies art connections" emphasizes that the methodology of cultural grounds of the humanities science reflects the versatility of artistic consciousness in its historical and theoretical aspects. The second paragraph of the first chapter is "Methodological vectors of culturology in the study of interspecific art connections". In this paragraph, the methodological basis of our scientific conception, which is based on certain vectors, namely, system analysis is concretized.

The second chapter is "Historical and Cultural Analysis of the Inter-Specific Relations of the Arts in the Culture of Medieval Azerbaijan." The first paragraph - "Universals of interspecific arts ties. Ornamentality as a cultural object. "In this paragraph, it is noted that the identification of interspecies art links in the morphological system occurs at several levels of research, which allow to optimally show the processes of interspecies links, to reveal their histories and obtain concrete results.

In the second paragraph, "Ethnocultural and philosophical aspects in the study of the morphological system of the arts," the idea is postulated that, based on culturological positions, it is possible to carry out an art restoration of Azerbaijani art, namely, the ornamental principle of development as the basis for interspecific arts ties.

The third chapter is "The structural and universal priorities of ornamentality in the interspecific analysis of the arts." In the first paragraph of the third chapter - "Specific Definitions of the Morphological Art System", certain types of arts are considered in the culture of medieval

Azerbaijan. This paragraph shows how different types of arts interacted with each other, defining clear contours of the morphological theme of the arts on the basis of ornamental kinship.

In the second paragraph of the third chapter, "The Role of the Structural Basis of Ornamentality in the Homogeneous Characteristics of the Artistic Culture of Medieval Azerbaijan," the general functional foundations of interspecific arts ties in the culture of medieval Azerbaijan are considered.

In conclusion, the main conclusions of the dissertation are formulated.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
H.Cavid 115

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВА**

*На правах рукописи*

**САЯЛЫ ШАХИН кызы КУЛИЕВА**

# КУЛЬТУРОЛОГИЧЕСКИЕ АСПЕКТЫ МЕЖВИДОВЫХ СВЯЗЕЙ В ИСКУССТВЕ СРЕДНЕВЕКОВОГО АЗЕРБАЙДЖАНА

**Специальность:** 6219.01 – «Культурология и ее общие вопросы»

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени доктора
философии по искусствоведению

**БАКУ – 2018**

Мамедов Ф. Культурологие Вопросы Теории и истории. Баку, 2002

Cəfərov N. Azərbaycanşünaslığa giriş. [illegible], 2002

Tağıyev A. Mədəniyyətşünaslığın əsasları. Bakı, 1989.

Xəlilov S. Şərq və Qərb. Bakı, 2004

Aslanova R.Qloballaşma və mədəni müxtəliflik. Bakı, elm,2004.

Şəfiyev X. Şərq – Qərb mədəniyyətləri və Əhməd bəy Ağa oğlu. Bakı, Ocaq, 2004.

Hüseynov İ, Əmirxanov S. Kulturologiya və onun əsas istiqamətləri. Bakı , ADMİU.1996.

Hüseynov İ. Əmirxanov S. Mədəniyyət tarixi və nəzəriyyəsi ( dərslik ) , Bakı, ADMİU, 2006

Məmmədova S. Mədəniyyətşünaslıq. Bakı , Kooperasiya nəşriyyat :, 2001.

Manafova M. Mədəniyyət tarixi və nəzəriyyəsi. Bakı, Təbib, 2006.

Mehdi.N. Çətin və dolaşıq durumların kulturologiyası. Bakı, 2001.

Süleymanlı M. Azərbaycanın kulturoloji fikir tarixindən ( XX əsrin əvvəlləri ) ,Bakı , “Nafta- Press” , 2011

Hüseynov İ. Azərbaycanın milli adət və ənənələrinin bədii- estetik mahiyyəti . Bakı, “ Mars – Paint ”, 2002.

Abdullayev.Ç.Almaniya-Azərbaycan əlaqələri.Bakı-2002.”Hərbi nəşriyyat”